# FƏLSƏFƏ

## ÖZGƏLƏŞMƏNİN SOSİAL-FƏLSƏFİ MAHİYYƏTİNƏ DAİR

**Z.C.HACIYEV, Y.M.ƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***z.haciyev45@mail.ru***

*Məqalə özgələşmənin sosial-fəlsəfi mahiyyətinin araşdırılmasına həsr olunmuşdur. Burada özgələşmə təkcə xüsusi mülkiyyət ilə deyil, həm də ictimai əmək bölgüsü ilə sıx bağlı olan problem kimi götürülür, bu səpkidə ona marksist yanaşmanın nöqsanlılığı vurğulanır.*

*Müasir dövrdə ictimai həyatın müxtəlif sferalarında özgələşməni yaradan səbəblərin və onun təzahür formalarının açıqlanmasına xüsusi diqqət yetirilir.*

*Son illərdə ölkəmizdə həyata keçirilən dərin islahatların özgələşmənin kəskinliyinin aşağı salınması və yumşaldılması üçün böyük əhəmiyyəti təhlil olunur.*

Marksizm tərəfindən sinfi yanaşma metodologiyasının rolunun şişirdilməsi, ideoloji təzyiq və ehkamçılığın tətbiqi, digər sosial hadisələrin tədqiqində olduğu kimi, özgələşmənin mahiyyətinin araşdırılmasında da ciddi nöqsanlara gətirib çıxarmışdı. Buna görə də, həmin problemin müasir sosial idrak və praktik baxımından hərtərəfli və adekvat nəzəri mənalandırılması son dərəcə aktual görünür. İnsan fəaliyyətinin bütün sahələri kimi sosial fəaliyyət də özgələşmə ilə ayrılmaz əlaqədə çıxış etdiyindən, onun bu səpkidə təhlil olunması elmi baxımdan mühüm əhəmiyyətə malikdir. Digər tərəfdən, universal xarakterli sosial fenomen olan özgələşmənin müxtəlif formaları insanın, sözün əsl mənasında, götürülən hərtərəfli inkişafına, həqiqi yaradıcı şəxsiyyət kimi özünü reallaşdırılmasına maneçilik yaradan amillərdən olduğu üçün, onun araşdırılması bu prosesin mənfi təsirinin yumşaldılmasına kömək edə biləcək yolların və vasitələrin axtarılıb tapılmasına praktiki fayda gətirə bilər.

Sözügedən problem öz məzmunu etibarilə mürəkkəb çoxsəviyyəli və çoxcəhətli xarakter daşıdığından, bir jurnal məqaləsi çərçivəsində onun bütün çalarlarını müfəssəl nəzərdən keçirmək qeyri-mümkündür. Odur ki, bu yazıda əsas diqqət özgələşmənin müasir cəmiyyətin sosial həyatında təzahürü formalarının təhlilinə, onun aradan qaldırılması və perspektivi ilə bağlı məsələlərin açıqlanmasına yönəldilir. Əlbəttə, problemi araşdırmağın məntiqinin tələb etdiyi səviyyədə digər məsələlərə də yeri gəldikcə toxunulur.

Hər şeydən əvvəl, qeyd olunmalıdır ki, özgələşmənin nəzəri səpkisi ilə əlaqədar fəlsəfi fikir tarixində hələ əvvəllər də bir sıra maraqlı fikirlər söylənsə də, bu anlayışın konseptual təliminin yaradılması XVII-XVIII əsrlərdən etibarən (T.Hobbs, J.Russo, F.Şiller və başqaları) özünü göstərmişdir. Həmin mütəfəkkirlərin yaradıcılığında

özgələşmənin siyasi idarəçilik orqanı olan dövlətin yaranması və əmək bölgüsü ilə bağlı tərəfləri araşdırılmışdır. İlk dəfə olaraq klassik alman fəlsəfəsində özgələşmə özünün daha geniş izahını tapmışdır. Xüsusilə də İ.G.Hegel özgələşmənin məna hüdudlarını genişləndirərək, onu mənəviyyata və şüura da aid etmişdir. Onun fikrincə, şüurun təşəkkülü prosesində Mütləq İdeya, dövlət, din, incəsənət və sair formalarda özgələşir. Hegelin «substansiya-subyekt» təliminə görə özgələşmə prosesində insan, yaratdığı reallaşdırılmış gerçəkliyi özündən ayırır və ona münasibətdə öz «Mən»inin tam müstəqilliyini saxlayır. Özgələşmə bir neçə mərhələdən keçir, birincisi, ruhun qəlb və can tərəfindən inkarı ilə başlayır, sonuncu pillə isə subyektin mənlik şüurunun ən yüksək səviyyədə özgələşməsini ifadə edir (2, 166).

Özgələşməni geniş planda araşdıran mütəfəkkirlərdən biri K.Marks olmuşdur. Onun sosial konsepsiyasında bu anlayış kapitalist xüsusi mülkiyyəti, ictimai əmək bölgüsü ilə ayrılmaz əlaqədə götürülür. Onun fikrincə, xüsusi mülkiyyət özgələşmiş xarakterli ictimai əmək bölgüsünün nəticəsi olmaqla, eyni zamanda özgələşməni davam etdirmə və reallaşdırma vasitəsi kimi çıxış edir. K.Marksa görə kapitalizmdə əməyin məcburi xarakter daşıması üzündən, işçi özünün əsl insani mahiyyətini reallaşdıra və yaradıcılığa olan tələbatını ödəyə bilmir. Buna görə də, o, əməyə ikrahla, özünə yad bir şey kimi yanaşır. Əmək fəaliyyəti kapitalizm şəraitində insanın mahiyyət qüvvələrinin reallaşmasına mane olur. Bütövlükdə, cəmiyyət işçiyə yad sosial forma alır. K.Marks özgələşmənin aradan qaldırılması perspektivini isə işçilərin əməyə münasibətinin əsaslı surətdə dəyişdirilməsi, insanın və istehsalın humanist təbiətinin bərqərar olması ilə bağlayırdı (6, 42, 96).

Kapitalizmdə özgələşmənin mahiyyəti və təzahür formaları haqqında marksist təlimin bir sıra müddəaları indi də öz aktuallığını saxlayır. Bunlar daha çox özgələşmə nəticəsində işçinin əməyinin və əmək şəraitinin ağırlaşması, əməyinin nəticələrinin ondan uzaq düşməsi, sosial institutların fəaliyyəti və sosial davranış etalonlarının fərd tərəfindən yad kimi qiymətləndirilməsi, cəmiyyət üzvlərinin ideoloji manipulyasiyası və ideologiyanın özgələşməsi ilə bağlı məsələlərə aiddir.

Özgələşmənin mahiyyəti və məzmununa dair müasir elmi ədəbiyyatda müxtəlif rəylər söylənilir. Bu barədə geniş yayılan fikirlərdən biri onu cəmiyyətin həyat fəaliyyətinin bütün tərəflərini əhatə edən və insanın mahiyyəti ilə onun mövcudluğu arasında uyğunsuzluqda, subyektin özü ilə təbiəti arasında ayrılıqda, predmetləşmiş formalarda çıxış edən qabiliyyəti üzərində nəzarətin itirilməsində, sonuncuların onun üçün yad qüvvəyə çevrilməsində ifadə olunan proses kimi səciyyələndirir. MDB ölkələrinin fəlsəfi fikrində postindustrial cəmiyyətin problemlərinin təhlilinə (o cümlədən də özgələşmənin) son iyirmi ildə başlanılmışdır. Burada bəzən yeni cəmiyyətdə guya özgələşmənin olmadığı haqqında rəylərin səslənməsinə baxmayaraq, əksər tədqiqatçılar belə mövqedən çıxış edirlər ki, özgələşmə ümumsosioloji fenomen olduğu üçün, o müasir cəmiyyətdə tamamilə aradan qalxmır, bir çox cəhətdən yeni formada qalır (5, 59).

Hazırda filosof və mütəfəkkirlərin yaradıcılığında özgələşmənin nəzəri tədqiqi genişləndikcə, bu anlayışın konseptual təlimi formalaşmaqdadır. Bu prosesin ən qabarıq təzahürünü özgələşmənin əvvəlki dövrlərdə olduğundan geniş, hərtərəfli və xeyli dərəcədə dəqiq tərifinin verilməsində yəqin etmək olar. Bu yönümdə əldə olunmuş nailiyyətləri ümumiləşdirərək, məşhur rus filosofu P.V.Alekseyev sözügedən anlayışa aşağıdakı kimi tərif verir: «Özgələşmə, insan fəaliyyətinin nəticələrinin,

eləcə də onun xassələri və qabiliyyətlərinin insana nə isə yad olan və onun üzərində ağalıq edən qüvvəyə çevrilməsi deməkdir» (1, s.201).

Bu tərifdə yenilik məqamı, fikrimizcə, bundan ibarətdir ki, keçmiş fəlsəfi ədəbiyyatda özgələşmə bir qayda olaraq yalnız insanın fəaliyyət məhsullarının ona münasibətdə yadlaşması kimi məhdud mənada səciyyələndirilirdi, insanın xassə və qabiliyyətlərinin özgələşməsi bu fenomenin çox mühüm tərəfləri kimi lazımi dərəcədə qiymətləndirilmirdi.

Müasir cəmiiyyətdə özgələşmənin sosial-fəlsəfi səciyyəsini verərkən, hər şeydən əvvəl, belə bir məqamı vurğulamaq lazımdır: bu fenomenin hazırkı vəziyyəti və ifadə formaları öz mahiyyəti etibarilə keçmiş dövrlərdə olduğu ilə ümumi varislik əlaqələrinə malikdir və bir növ onun özünəməxsus davamı kimi çıxış edir.

Özgələşmənin fəlsəfi təhlili sübut edir ki, o daha çox insanın fəaliyyət potensialı və gerçəkləşməmiş imkanları ilə real həyatda mövcud olan strukturlar və ictimai formalar arasında baş verən ayrılıq və uzaqlaşmada üzə çıxır. Bu, insanın elə bir sosial və psixoloji vəziyyəti deməkdir ki, o özünün yaradıcılıq qabiliyyətlərini həyata keçirə bilmir, bir növ sosial fəallıqdan məhrum olur. Özgələşmə insanın həyat fəaliyyətinin bütün sahələri ilə yanaşı, onun daxili mənəvi aləmi, şüuru və psixikasında da təzahür edir. Sonuncu formada çıxış edən özgələşmə daha təhlükəlidir, çünki, fərdin ümid və arzuları ilə mövcud cəmiyyətin mənəvi-əxlaqi standartları və normaları arasında kəskin uyğunsuzluğu göstərir. Belə vəziyyətdə subyekt, sonuncuları özünə yad və düşmən kimi qəbul etdiyindən, onda mənəvi tənəzzül baş verir, tənhalıq, ümidsizlik və kimsəsizlik hissi güclənir.

XX əsr və XXI əsrin ötən onilliyi ictimai həyatın sosial təşkili formalarında bir çox əsaslı yeniliklərin yaranması ilə səciyyələnir. Onları öz məzmununa və özgələşməyə təsiri baxımından iki yerə ayırmaq olar: birinci qruppa, fikrimizcə, insanın və cəmiyyətin sərəncamında olan məhsuldar qüvvələrin sürətli artımı və inkişafı, elmi-texniki tərəqqi, EHM-in, yeni texnologiyaların geniş miqyaslı tətbiqi, insanların dünyagörüşü, şüuru və mədəni səviyyəsində baş verən irəliləyişləri aid etmək olar. Bunlar bütöv bir tam kimi götürüldükdə, insanın mahiyyət qüvvələrinin reallaşmasında misilsiz imkanlar yaradır və bu baxımdan özgələşməni aradan qaldırmaq üçün şərait formalaşdırır. Bu qrupdan olan yeni meyllər sırasında ictimai həyatda biliyin və informasiya texnologiyalarının rolunun sürətlə artması xüsusi qeyd olunmalıdır. Hazırda müxtəlif növlü biliklər və informasiya, ictimai tərəqqinin əsas amilinə çevrilməkdədir. Bunun nəticəsidir ki, həmin göstəricilərə daha çox malik olan ölkələr dünyada dominant mövqe tuturlar. Bu ölkələrdə məhsul istehsalı ilə yanaşı, müxtəlif xidmət növlərinin yaradılması getdikcə daha çox yer alır, xüsusi mülkiyyətin və mülkiyyət sahiblərinin təsir dairəsi sürətlə genişlənir, cəmiyyətdə institusional sistemlər əsaslı surətdə yeniləşir, informatizasiyanın, robotlaşma və avtomatlaşmanın tətbiqi hərtərəfli miqyas alır, mübadilə sferasında, dəyərlər ilə bağlı münasibətlərdə bir çox yeniliklər müşahidə olunur, yeni mülkiyyət forması – informasiya mülkiyyəti yaranır və onu əldə etmək imkanları genişlənir (3, 7).

Bütün bunların nəticəsində cəmiyyət elə bir sosial orqanizmə çevrilir ki, burada sosial həyatı maddi nemətlər üzərində mülkiyyətin miqdarından daha çox informasiya və bilik üzərində geniş əməliyyatlar aparmaq qabiliyyəti ilə ölçülür. Nəticədə cəmiyyətdə intellektuallar təbəqəsinin sayı durmadan artır.

İkinci qrup hadisələr isə öz məzmununa görə tam əks istiqamətdə olmaqla, müasir insanın sosial həyatdan özgələşməsinə stimullaşdırıcı təsir göstərir. Onların

sırasında totalitar rejimlərin törətdiyi geniş miqyaslı qətllər, birinci və ikinci dünya müharibələrinin yaratdığı böyük faciələr, kütləvi qırğın silahlarının daim çoxalması, qlobal problemlərin daha kəskin formalar alması, ekoloji təhlükənin artması və s. əsas yeri tutur. Bu qəbildən olan hadisələr özgələşmənin müxtəlif formalarına əlverişli mühit yaradır və qida verir.

Müasir cəmiyyətdə özgələşməni şərtləndirən amillərdən və səbəblərdən danışarkən, bunu da qeyd etmək vacibdir ki, yuxarıda göstərilən birinci qrupa aid proseslərin özü də bəşəriyyətin maddi imkanlarını artırmaqla əməyin məzmununu yüngülləşdirməklə yanaşı, ciddi neqativ dəyişiklikləri də şərtləndirir. Məsələn, əməyin konveyer formalarının və avtomatlaşmanın geniş miqyaslı tətbiqi, işçinin hərtərəfli inkişafına mane olur, onu bir növ bütün tapşırıqları mexaniki surətdə yerinə yetirən robota çevirir, yaradıcılığını ciddi surətdə zəiflədir. Eynilə də kompyuterlərin əmək və məişət həyatına dərindən nüfuz etməsi nəticəsində yaranan psixoloji gərginlik və streslər, kütləvi informasiya vasitələrində çoxmənalı xarakter daşıyan və bəzən də qərəzli olan məlumatların yerləşdirilməsi, televiziya ekranlarında narkomaniya, zorakılıq, ölüm və parnoqrafiya ilə bağlı verilişlərin geniş yer tutması, insanın əsl yaradıcılıq mahiyyətinin və mədəniyyətinin inkişafına mane olur, ona yad mədəniyyət ünsürləri təlqin edir. Nəticə etibarilə bütövlükdə cəmiyyətdə yalançı və təhrif olunmuş maddi və mənəvi tələbatlar sistemi formalaşdırır, fərdi təfəkkür özünəməxsusluğunu aradan qaldırır, düşüncə tərzini standartlaşdırır və vahid qəlibə salır. Bütün bunlar və digər neqativ hadisələr insanda qorxu hissini artırır, onun kimsəsizliyi və tənhalığı haqqında təsəvvürlərini gücləndirir, özünün, yaşadığı cəmiyyətin və bütövlükdə bəşəriyyətin taleyi ilə bağlı təhlükə və ümidsizliyi çoxaldır. Həm də qeyd olunmalıdır ki, müasir dövrdə ölkə daxilində və beynəlxalq miqyasda baş verən ciddi dəyişikliklər, özgələşmənin məzmununda yeniliklər yaradır. Nəticədə o, prinsipcə yeni mahiyyət və spesifik ifadə formaları alır. Bu baxımdan yuxarıda qeyd olunan informasiya-kommunikasiya texnologiyalarının tətbiqi miqyasının genişlənməsi daha səciyyəvidir. Həmin proses intensivləşdikcə, sosial fəaliyyətdə elmi yeniliklərin və biliyin rolu çoxaldıqca, onlardan real istifadəolunma göstəricilərinə görə əhalinin geniş kütləsi ilə seçilmiş müəyyən qrup adamlar (elit) arasında uyğunsuzluqların artması, sosial özgələşməyə sürətləndirici təsir göstərir. Bu gün istifadə olunan informasiya texnologiyaları insan fəaliyyətinin əvvəllərdə məlum olmayan, prinsipcə yeni və çox şaxələnmiş sahələrini yaratdığından, subyektin şəxsiyyət kimi öz mahiyyətini tam bütövlüyü ilə reallaşdıra bilməsi çətinləşir.

Bununla əlaqədar belə bir cəhətə də diqqət yetirilməlidir ki, müasir cəmiyyətdə genişlənməkdə olan informasiya qarşılıqlı təsiri prosesləri sözün əsl mənasında ziddiyyətli xarakter daşıyır. Belə ki, onlar bir tərəfdən informasiyanın özgələşməsini (yəni onun şəxssiz surətdə mövcud olan predmet kimi ifadə olunmasını) şərtləndirir, digər tərəfdən, özgələşmə informasion əlaqələrin və qarşılıqlı təsirin təkrar istehsalının zəruri şərti kimi çıxış edir.

Deyilənlərlə yanaşı, cəmiyyətimizin yaşadığı müasir dövrdə insana təsir edən amillərin, bilik və informasiya axınının sayının durmadan artması (o cümlədən də, neqativ yönümlü), çox vaxt onun öz yaradıcı qabiliyyətlərini reallaşdırması yolunda müəyyən əngəllər yaradır, nəticədə onun mövcud sosial strukturlardan və idarəçilik orqanlarının fəaliyyətindən narazılığı güclənir. Cəmiyyətdə özünü göstərən bəzi vəzifəli şəxslərin öz mövqeyindən sui-istifadə etmə halları, qohumbazlıq, rüşvətxorluq, korrupsiya və digər neqativ hərəkətlər, bu prosesə əlverişli qida verir. Nəticədə

şəxsiyyətin öz fərdi mühitinə qapanması və tənhalığı artır, cəmiyyətin sosial və siyasi institutları sisteminə biganə münasibəti formalaşır, bütün bunlar da özgələşməyə gücləndirici təsir göstərir.

Müasir cəmiyyətdə özgələşməni şərtləndirən çoxsaylı amillər kompleksinin xeyli qismi (əməyin məzmunu və şəraitində özünü göstərən ciddi neqativ tərəflər, totalitarizmdən miras qalmış ağır nəticələr, mülkiyyətin dövlətin inhisarında olması nəticəsində əhalinin əksəriyyətinin ondan özgələşməsi, siyasi həyatda plüralizmə yol verilməməsi, əksəriyyətinin ondan özgələşməsi, siyasi həyatda plüralizmə yol verilməməsi, sosial sahədə, təhsil və təbabətdə avtoritar rejimin törətdiyi ağır nəticələr və s. aradan qalxmışdır. Ölkəmizin iqtisadi, siyasi və mənəvi həyatında, insanların mədəniyyəti, dünyagörüşü və şüurunda, bütövlükdə əxlaqında və daxili aləmində mütərəqqi irəliləyişlər baş verdikcə, bu meyl daha da güclənməkdədir. Lakin yuxarıda qeyd olunanlar heç də o demək deyildir ki, indi cəmiyyətdə özgələşmə yoxdur, o, təkrar istehsal olunmur. Belə yanaşma sadəlövhlük olardı, çünki hazırda özgələşməni şərtləndirən əsas ümumsosioloji şərtlər (ictimai əmək bölgüsü, fərdlərin maraqları ilə bütövlükdə cəmiyyətin maraqlarının fərqliliyi və s.) qalmaqda davam edir və onlar ictimai həyatın müxtəlif sahələrində və idarəçilikdə özünü göstərən subyektiv əyintilər ilə vəhdətdə çıxış edərək özgələşmə üçün əlverişli zəmin yaradır. Bu məsələdən danışarkən, müasir dövrdə bütünlükdə dünya miqyasında baş verən əsaslı dəyişikliklərin – ölkələr arasında iqtisadi, siyasi və mədəni əməkdaşlığın möhkəmlənməsi, qarşılıqlı asılılığın və inteqrasiya proseslərinin sürətlənməsi, qloballaşmanın törətdiyi müxtəlif istiqamətli nəticələr, vahid dünya informasiya məkanının formalaşması gedişində yaşayış yerindən asılı olmayaraq cəmiyyətin bütün üzvlərinin intellektual və məlumat alma səviyyəsinin qeyri-adi dərəcədə çoxalması, bir sözlə, bəşəriyyətin və sivilizasiyanın ümumi taleliliyinin formalaşması və sair istiqamətlərdə olan böyük dəyişiliklərin də çox mühüm rolu qeyd edilməlidir. Doğrudur, yuxarıda göstərilənlər müasir insanın həyat fəaliyətinin bütün sahələrinin səmərəli təşkil olunması və yüngülləşməsi baxımından böyük irəliləyişlər törədir, lakin bununla yanaşı onlar, həm də özgələşmənin qlobal miqyas almasına və genişlənməsinə də şərait yaradır. Həm də nəzərdə tutulmalıdır ki, müasir dövrdə gedən qloballaşma prosesi, vahid informasiya məkanının təşəkkülü, sosial özgələşmənin bir ölkə və region çərçivəsi ilə məhdudlaşmayaraq, universal beynəlxalq miqyas almasına gətirib çıxarır. Bu isə o deməkdir ki, sosial özgələşməni doğuran səbəbləri təhlil etmək əsasında onun zəifləməsi istiqamətində addımlar atmaq, ümumi qlobal vəzifəyə çevrilməkdədir. Deyilənlərə onu da əlavə etmək lazımdır ki, müasir ictimai inkişafda iqtisadi və elmi-texniki tərəqqi getdikcə daha çox antropoloji, humanist səmtə yönəldiyindən, cəmiyyətin həyat fəaliyyətində insan ölçülərinin, elmin və mədəniyyətin təsir dairəsi genişləndiyindən, bu sahələrdə özgələşmənin nisbətən kəskin formalarını aradan qaldırmaq və yumşaltmaq vacib olur.

Konkret yanaşdıqda müasir cəmiyyətdə sosial özgələşmə bir çox növləri əhatə edir ki, onların sırasında aşağıdakılar xüsusi yer tutur: əmək şəraitindən və əməyin nəticələrinin bölgüsü sistemi üzündən sosial nemətlərdən özgələşmə, cəmiyyətin sərəncamında olan ictimai sərvətlərin bölünməsində qeyri-bərabərlik, istehlakçılıq və maliyyə fetişizmi nəticəsində yaranır; siyasi özgələşmə (dövlətdən, siyasi partiyalardan, ictimai təşkilatlar və hərəkatlardan özgələşmə kimi çıxış edir); mənəvi özgələşmə (elmdən, təhsil və tərbiyə sistemindən özgələşmə; insanlar arasında sosial əlaqə və münasibətlərdə özgələşmə (millətçilik, şovinizm, irqçilik, dini dözümsüzlük);

mədəni sferada özgələşmə (mədəni dəyərlərə biganə münasibət); cəmiyyət-təbiət münasibətlərində təzahür edən ekoloji özgələşmə.

Keçmiş dövrlərdə olduğu kimi, indiki cəmiyyətdə də özgələşmə birinci növbədə iqtisadi həyatda təzahür edir. O, burada maddi istehsalın hər iki yarımsistemində (ictimai-iqtisadi münasibətlər sistemində və texniki-texnoloji sahədə) özünü göstərir. Qeyd olunan hər iki istiqamət bir-biri ilə qarşılıqlı təsirdə və vəhdətdə çıxış edərək, özgələşmənin digər formaları və növlərinə güclü təsir göstərir.

Cəmiyyətin iqtisadi sferasında özgələşmə özünün ən qabarıq ifadəsini insanların əmək fəaliyyətində, onun nəticələrinin bölünməsində və ümumilikdə əmək şəraitində tapır. Bu sahələrdə baş verən özgələşməni törədən çoxsaylı amillər kompleksi mövcuddur. Onların sırasında bazar münasibətləri və sərbəst rəqabət xüsusi yer tutur. Qeyd olunan şəraitdə insanların qabiliyyətləri onların istehsal etdiyi məhsullarda şəxssiz formada təcəssüm olunduğundan, özləri üzərində nəzarət edən yad qüvvə kimi çıxış edir. Belə istehsal və təkrar istehsal prosesi davam etdikcə, insanlar arasındakı iqtisadi əlaqə və münasibətlər də getdikcə daha çox şəxssizləşmiş dəyərlər mübadiləsi forması alır. Nəticədə insanın əməyi ilə yaradılan əşyalar aləmi, əməyə yad olan və onun üzərində ağalıq edən qüvvəyə çevrilir (8, 54).

Bazar şəraitində istehsalçı ilə alıcı, ümumi əmək bölgüsü prosesinə özünəməxsus şəkildə daxil olur: onlar, xüsusilə də birinci tərəf, öz tələbatlarını ödəmək üçün (həm də özünü şəxsiyyət kimi təkrar istehsal etmək naminə) qabiliyyətlərini bazar sövdələşmələrində əmtəə (məhsul) kimi satmalı olur. Bu vəziyyətdə özgələşməni şərtləndirən başlıca amil odur ki, işçinin hətta öz-özünə münasibəti də onun qabiliyyətlərindən keçərək reallaşır, bu qabiliyyətin nə dərəcədə gərəkli və qiymətli olduğunu isə məhz bazar mexanizmi diktə edir. istehsalçının əmək prosesində yaratdığı məhsulun ondan ayrı düşməsi nəticəsində onda öz qabiliyyətlərinə, öz-özünə və bütövlükdə əmək fəaliyyətinə sözün müəyyən mənasında özgələşmiş münasibəti gücləndirir. Nəticədə insanın başlıca sosial səciyyələri və keyfiyyətləri də bir növ ondan kənar xarakter alır, onun şəxsi göstəriciləri ilə deyil, müəyyən şəraitlə, təsadüflərlə, əmlak, senzi bu və ya digər sosial qrupa mənsubiyyəti ilə müəyyən olunur, deməli onlar insana kənardan, anonim qüvvələr tərəfindən təhrik olunur. Beləliklə də, şəxsiyyət, onun fərdiyyəti ilə əlaqəli olmayan rolları yerinə yetirməli olur (4, 147-149).

Müasir insanın əmək prosesində özgələşməsinə həm də texniki tərəqqi, yeni texnologiyaların tətbiqi miqyasının genişlənməsi, robotlaşma və avtomatlaşma da əhəmiyyətli təsir göstərir. Belə şəraitdə insan maşının əlavəsinə, şüursuz texnikanın şüurlu vasitəsinə çevrilir. Öz mahiyyəti etibarilə subyekt-obyekt münasibətləri sanki yerlərini dəyişir: texnoloji prosesin subyekti olan insan, onun obyektinə, yəni maşının adi texniki əlavəsinə çevrilir. Maşın insana deyil, insan maşina uyğunlaşır, o, maşın-orqanizmin hərəkət tempi və hüdudları daxilində fəaliyyət göstərməli olur.

Qeyd olunmalıdır ki, texniki və texnoloji səpkidə özünü göstərən özgələşmə həm də buna görə təhlükə yaradır ki, o, təkcə öz hüdudları daxilində təsir göstərmir, bu çərçivəni aşaraq sosial münasibətlər sferasında da özünəməxsus şəkildə nüfuz edə bilir. Belə ki, maksimum qazanc və gəlir əldə etmək, bir çox hallarda işçinin əsl məqsədi və amalına çevrildiyindən, istehsalçını öz əməyi, onun xarakteri şəraiti və məzmunu o qədər də maraqlandırmır, bütövlükdə əməyə etinasızlıq və biganəlik özünü göstərir. İşçini əmək şəraiti və peşə yüksəlişi deyil, yüksək əmək haqqı almaq, daha çox düşündürür. Belə özgələşmə istehsalçılar arasındakı münasibətlərə dərindən nüfuz edir, lakin onun təsiri təkcə bununla bitmir, həm də sosial həyata öz müvafiq

möhrünü vurur: əhalinin sosial vəziyyətə görə təbəqələşməsini və qütbləşməsini, varlılar isə yoxsullar arasındakı uçurumu daha da dərinləşdirir.

Bilavasitə əmək şəraitinə gəlincə özgələşmə bunda təzahür edir ki, işçini normal əmək şəraiti, onun müddəti, sanitar-gigiyenik şəraiti o qədər də maraqlandırmır, işçizlik mövcud olduğundan, o əməklə məşğul olmaq və müəyyən gəlir-əmək haqqı almaq üçün hər cür əmək şəraiti ilə razılaşmalı olur, əks təqdirdə o iş yerini itirmək təhlükəsi ilə, ailəsini və övladlarını yaşayış vasitəsindən, əmək haqqından məhrum etmək qorxusu ilə üzləşir. İqtisadi həyatda özgələşmə həm də işçinin istehsalın idarə olunmasında, idarəçilik qərarlarının qəbulunda iştirak etməməsində təzahür edir. Bundan əlavə işə götürənlər əksər hallarda işçilərlə rəsmi müyqavilə bağlamamağa çalışırlar (bu əmək fonduna mıvafiq ayırmaları ödəməmək, sosial sığortadan yaxa qurtarmaq və s. məqsəd güdür). Bu daha çox xırda və orta səviyyəli müəssisələrdə baş verir. Nəticədə sosial nemətlərdən özgələşmə özünü göstərir. Belə müəssisələrdə çalışanlar çox vaxt əsas sosial proqramlardan kənarda qalır, yəni onun üçün pensiya və sosial müdafiə təminatı yaradılmır, qocaldıqda və əmək qabiliyyətini itirdikdə müavinət almır, beləliklə də ciddi çətinliklər ilə üzləşir.

Müasir dövrdə özgələşmə həm də insanlar arasında sosial təbəqələrin və münasibətlərin istehsalı və təkrar istehsalında üzə çıxır. Bu sferada özgələşmə müxtəlif sosial birlik növlərinə məxsus olan insanların bir-birinə yadlaşmasında, daha çox sosial-etnik münasibətlərdə özünü göstərir. XX əsrin sonlarından etibarən milli-etnik münasibətlərdə baş verən renessans və yüksəliş, özü ilə həm də müəyyən neqativ cəhətləri (millətlərarası münaqişələr, millətçilik, milli şovinizm, milli əlahiddəlik və s.) yaratdı ki, bu da sözügedən sahədə özgələşməyə stimullaşdırıcı təsir göstərir.

Özgələşmə müasir cəmiyyətin siyasi həyatında da təzahür edir. Doğrudur, hazırda siyasi sferanın ardıcıl surətdə demokratikləşdirilməsi, siyasi fəaliyyətdə pluralizmin cəmiyyətin geniş təbəqələrinin siyasətdə fəal iştirakını və siyasi fəallığını gücləndirir. Bununla birlikdə müasir siyasi münasibətlər sistemində özünü göstərən qüsurlar, əhalinin siyasi mədəniyyətinin zəif olması və sair amillər nəticəsində cəmiyyət üzvlərinin heç də hamısı siyasi hakimiyyət mexanizminə, siyasi idarəçiliyə və siyasi fəaliyyətə tam dolğunluğu ilə qovuşa bilmir. Bütün bunlar isə onların müəyyən hissəsində siyasi süstlük və laqeydlik mövqeyinin qərarlaşmasına, bir sözlə siyasi özgələşməyə gətirib çıxarır. Özgələşmənin sosial həyatda ifadə formaları şurasında mənəvi sfera-elm, təhsil, mədəniyyət və mənəvi dəyərlərin yaradılması və istifadə olunması ilə bağlı tərəflər xüsusi yer tutur. Bu, həmin sahələrin insanın mahiyyətinin başlıca keyfiyyəti olan mənəviliklə daha sıx bağlılığı ilə izah edilir. Son dövrlərdə ictimai həyatın bütün tərəflərində olduğu kimi, mənəvi sferada da əsaslı transformasiya prosesləri, burada normal ab-havanın, elmi axtarışlar mühitinin və mənəvi dəyərlərdən bəhrələnmək üçün şəraitin yaxşılaşdırılması ilə nəticələnmişdir. Bununla yanaşı, mənəvi həyatda özgələşmənin mövcudluğunu inkar etmək sadəlövhlük olardı.

Elmi nailiyyətlərdən və mənəvi dəyərlərdən özgələşmə başlıca olaraq aşağıdakı iki istiqamətdə təzahür edir. Bir tərəfdən iş gününün vaxtı uzun olduğundan, istehsalçılar fiziki və mənəvi baxımdan yorğun olur və beləliklə də incəsənət ilə məşğul olmağa o qədər də can atmır. Digər tərəfdən, müasir şəraitdə incəsənət əsərlərinin, mənəvi dəyərlərin kifayət qədər baha olması üzündən, geniş xalq kütləsi ondan effektiv istifadə edə bilmir.

Mənəvi cəhətdən özgələşmə həm də bunda ifadə olunur ki, elmi nailiyyətlər və ictimai inkişaf haqqında nəzəriyyələr, bəzən həqiqi əhəmiyyətinə görə deyil, sxematik

olaraq qəbul olunur. İctimai elmlərdə, təhsil və tərbiyə sistemində avtoritar təfəkkür tərzinin qalıqları davam edir. Şəxsiyyətin mənəvi həyatının ikiləşməsi baş verir, yəni onun gündəlik davranışı və əməli bir cür, rəsmi dairələrdə və söhbətlərdə özünü aparması isə tamamilə başqa cür olur.

Nəhayət, bazar münasibətləri şəraitində ekoloji səpkidə də özgələşmə baş verir. Bu onda təzahür edir ki, ətraf mühit yüksək gəlir almaq naminə amansız istismar olunur. Nəticədə insanın və cəmiyyətin normal ekoloji şəraiti pozulr və ciddi təhlükəyə məruz qalır, ətraf mühitin qorunub saxlanılması üçün məsuliyyət zəifləyir, ekoloji biganəlik və özgələşmə qərarlaşır.

Qeyd etmək lazımdır ki, özgələşmənin yuxarıda göstərilən formaları bir-birindən təcrid olunmuş halda deyil, sıx qarşılıqlı təsirdə, çox vaxt isə çulğalaşmış şəkildə özünü göstərir. Bu məqam həmin fenomenin ictimai həyatda mənfi istiqamətdə təsirini daha da artırır.

Özgələşmənin sosial-fəlsəfi təbiətini araşdırarkən, onun azadlıq ilə münasibətlərinə də diqqət yetirmək vacibdir. Təsadüfi deyildir ki, müasir qərb fəlsəfəsində belə bir fikir geniş yayılmışdır ki, XX əsrin II yarısından başlayaraq qərarlaşan yeni ictimai inkişaf mərhələsinin (bunu çox vaxt postindustrial, informasion, texnotron və yaxud professionallar cəmiyyəti də adlandırırlar) səciyyəvi cəhətini məhz azadlıq və özgələşmə problemlərinin sosial həyatın mərkəzinə keçməsi təşkil edir.

Bu anlayışlar arasında əlaqələr mürəkkəb mexanizmə malikdir, yəni birmənalı şəkildə iddia etmək olmaz ki, azadlığın məhdudlaşması özgələşməni törədir və ya əksinə, özgələşmə azadlığın inkişaf məhsuludur. Əslində azadlıq ilə özgələşmənin qarşılıqlı əlaqələri çoxtərəfli xarakter daşıyır. Burada təzahür edən əsas istiqaməti aşkar etmək üçün azadlığın təməlində duran zərurət anlayışının mahiyyətinə nəzər salmaq vacibdir. Bütün tarixi dövrlərdə olduğu kimi, hazırda da zərurətin məzmununda obyektiv reallıq başlıca yer tutur. Bu sonuncu özündə həm də özgələşmə məqamını ifadə edir, yəni o, həm də sözün müəyyən mənasında özgələşmiş reallıq kimi çıxış edir. Deməli, zərurət özündə elə özgələşməni əks etdirir ki, azadlıq yalnız onun hüdudları daxilində fəaliyyət göstərir. Bu fikri daha konkret şəkildə belə ifadə etmək mümkündür: azadlıq, müəyyən mənada sosial fəaliyyətin özgələşmiş formasının sərbəst seçimi deməkdir. Sözügedən seçim isə bir çox cəhətdən özgələşmiş reallığın diktə etdiyi zərurəti ifadə edir.

Özgələşmə ilə azadlıq arasındakı real əlaqələrin qarşılıqlı xarakteri, həm də aşağıdakı məqamda özünü göstərir: özgələşmə sözün müəyyən mənasında şəxsiyyəti xarici mühitin təsirindən və mövcud standartların diktəsi altında fəaliyyət göstərməkdən xilas etdiyi üçün belə bir fikir yürütmək məntiqi olar ki, onun inkişafı şəxsiyyət azadlığının reallaşmasında qismən də olsa, müsbət rol oynayır. Təbii ki, özgələşmənin bu rolunu həddən artıq şişirtmək, yəni onu azadlığın əldə olunmuş miqyaslarının mütləq göstəricisi kimi qələmə vermək, doğru olmazdı. Burada söhbət yalnız özgələşmənin azadlığın inkişafına nisbi mənada müsbət təsirindən gedə bilər.

Özgələşmənin daxili təbiətini və mahiyyətini açarkən, nəzərdə tutulmalıdır ki, o ani baş verən hadisə deyildir, müəyyən mərhələləri və pillələri əhatə edən uzunmüddətli, mürəkkəb prosesdir. Onun dinamikası özünün çoxistiqamətli və çoxçalarlı xarakter daşıması ilə səciyyələnir. Bu prosesin birinci mərhələsi insanların qüvvələri, qabiliyyətləri və fəaliyyət məhsullarının onlardan ayrılmasında ifadə olunur. İkinci, sözün əsl mənasında özgələşmə kimi götürülən mərhələdə isə yuxarıda qeyd olunan

tərəflərin hər biri bütöv tam kimi müstəqil surətdə çıxış edir. Beləliklə də, onlar insanların nəzarətindən kənara çıxaraq, onlar üzərində ağalıq edən qüvvəyə çevrilir.

Özgələşmənin sosial-fəlsəfi baxımdan mənalandırmağın mühüm bir prinsipi, ona yalnız konkret-tarixi hadisə kimi deyil, ümumsosioloji fenomen kimi yanaşılmasıdır. Əlbəttə, belə yanaşma, müxtəlif tarixi mərhələlərdə onun özünəməxsus cəhətlərə malik olduğu faktını inkar etmir, belə bir cəhəti vurğulayır ki, bu hadisə ictimai əmək bölgüsü ilə ayrılmaz əlaqədə olduğundan, o gələcəkdə də fəaliyyət göstərəcəkdir. Buna görə də, söhbət yaxın perspektivdə onun ləğv olunmasından deyil, yeni, daha yumşaq formalarda davam edəcəyindən getməlidir. Özgələşmənin bu və ya digər formada bütün dövrlərdə mövcud olacağının iddia edilməsi, həm də belə bir məntiqə əsaslanır ki, hər bir cəmiyyətdə ayrıca götürülmüş bir insanın (fərdin) maraq və mənafeləri ilə ümumilikdə cəmiyyətin bu qəbildən olan analoji göstəriciləri arasında müəyyən fərqlilik və ayrılıq mövcuddur. Bu vəziyyət gələcəkdə də qalacaqdır və deməli, özgələşmə üçün şərait və mühit də tarix səhnəsindən silinib getməyəcəkdir. Əlbəttə, deyilənlərdən belə bir yanlış nəticə hasil etmək doğru olmazdı ki, cəmiyyətin tərəqqisi gedişində özgələşmənin məzmunu və təzahür formaları birmənalı və dəyişilməz xarakter daşıyır. Əslində, ictimai həyatın maddi istehsal, sosial, siyasi və mənəvi sferaları inkişaf etdikcə, buna müvafiq olaraq həmin sahələrin hər birində və bütövlükdə cəmiyyət miqyasında şəxsi və ictimai maraqların qarşılıqlı əlaqələri də təkmilləşir, burada uzlaşmanın səviyyəsi artır, bu isə zərurən özgələşmənin məzmununda, baş vermə istiqamətlərində kəskinlik dərəcəsinin azalması, onun təzahür formalarının yumşalması ilə müşayiət olunur.

Bunu da qeyd etmək vacibdir ki, özgələşmə cəmiyyətdə ikili təbiətə malikdir. O təkcə mənfi deyil, həm də müsbət rol oynayır. Əgər birinci istiqamət, özgələşmə insanın mahiyyət qüvvələrinin reallaşmasında yaratdığı maneələrlə bağlıdırsa, ikinci özünü bunda göstərir ki, o, ictimai əmək bölgüsü ilə bilavasitə əlaqəli olduğundan, mövcud cəmiyyətdə fərdlər arasında əlaqələr yaratmağın müəyyən forması kimi çıxış edir. Sonuncunun başlıca məzmunu onun iqtisadi, sosial, siyasi və mənəvi fəaliyyət sferalarında bir-birinə qarşı duran (əks) tərəflərin əlaqəsi olmasındadır. Özgələşmənin cəmiyyətdə inteqrasiyaedici rolu, həm də onun müxtəlif sferalarda təzahür formalarının əlaqəliliyində aşkara çıxır. Belə ki, özgələşmə təkcə maddi istehsal sahəsi ilə məhdudlaşmır, digər sferalarda da özünü göstərir. Başqa sözlə, sosial həyatda, təhsil və təbabət sistemində, siyasi həyatda siyasi institutların fəaliyyətində, mənəvi sahədə cəmiyyətin sərəncamında olan mənəvi nemətlərin istifadə olunması səviyyəsində və s. formalarda çıxış edən özgələşmə növləri bir-birilə sıx əlaqələrdə olur.

Özgələşmənin fəlsəfi mahiyyətini araşdıran tədqiqatçıların əksəriyyəti onu insan varlığının mənfi tərəfi kimi səciyyələndirirlər. Bununla yanaşı həmin fenomenə sinergetik mövqedən yanaşaraq çoxtərəfli təbiətini üzə çıxarmağa çalışanlar da vardır. Sonuncu mövqe belə bir fikri əsas götürür ki, insanın sosial fəaliyyətinin özgələşməsi, ümumilikdə özgələşmənin bir forması olmaqla, özündə subyektin iradə və niyyəti ilə tam uyğun olmayan və deməli neqativ yönümlü olmaya bilən stoxastik nəticələri ifadə edir (7, 3). Analoji yanaşma, sosial özgələşməni yalnız neqativ səpkidən ibarət hesab etmir, yəni birtərəfli götürmür. Həmin təsəvvürə görə özgələşmənin məzmununda ifadə olunan inkarı xarakterli əks əlaqə forması, öz-özünü təşkil edən, qeyri-müvazinətli mürəkkəb sistemlərdə kifayət qədər mühüm rol oynayır. Fikrimizcə, özgələşmənin mahiyyətinin bu cür ikili izahı (həm mənfi, həm də müsbət) doğrudur və mühüm elmi maraq kəsb edir.

Spesifik ictimai münasibətlər növü olan özgələşmənin kəskinlik dərəcəsinin azaldılması obyektiv və subyektiv xarakterli amillər kompleksinin birgə təsiri sayəsində mümkündür. Odur ki, burada təkcə sosial-iqtisadi inkişaf kifayət deyildir, həm də sosiomədəni və mənəvi baxımdan əsaslı irəliləyişlər etmək tələb olunur. Özgələşmənin optimal səviyyədə təzahürünə nail olmaq üçün, həm də insanların ictimai şüuruna güclü, yeniləşdirici təsir göstərilməlidir. Bu təsir ona nail olmağa yönəlməlidir ki, cəmiyyətin hər bir üzvünün şüurunda özgələşmənin zəiflədiyi təsəvvürü yaradılsın: bu münasibətdə ölkəmizdə milli müstəqillik dövründə baş verən əsaslı transformasiya prosesləri böyük önəm kəsb edir. Söhbət sözün geniş mənasında götürülən sosial həyatın bütün tərəflərində həyata keçirilən dərin və əhatəli proqramlardan (yoxsulluğun azaldılması, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, təhsil sistemində əsaslı islahatlar, mədəniyyətin hərtərəfli yüksəlişinə yönəlmiş tədbirlər silsiləsi, səhiyyədə baş verən mühüm irəliləyişlər, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi və sosial müdafiəsinin gücləndirilməsi xəttinin ardıcıl yerinə yetirilməsi və s.) gedir.

Sosial özgələşməni perspektiv baxımdan mənalandırarkən, fikrimizcə, aşağıdakı mövqedə durmaq məntiqi hesab oluna bilər: söhbət gələcəkdə bütövlükdə sosial özgələşmənin və yaxud onun hər hansı konkret növünün tamamilə aradan qaldırılmasından deyil, mövcud sosial münasibətlər sisteminin təkmilləşdirilməsi və insanın şəxsiyyət kimi inkişaf etdirilməsi əsasında bu iki tərəfin ahəngdarlığını yaratmaqla və inkişaf etdirməklə, sosial özgələşmənin yumşaldılmasını, yəni insan və cəmiyyətin maraqları və tələbatları baxımından yol verilən, bəraətli hesab olunan hədlər daxilində həyata keçirilməsini təmin etməkdən getməlidir.

## ƏDƏBİYYAT


1. Алексеев П.В. Социальная философия. М.: Проспект, 2005, 253 с.
2. Гегель Г. Политические произведения. М.: Мысль, 1975, 490 с.
3. Иноземцев В.Л. Собственность в постиндустриальном обществе в исторической перспективе// Вопросы философии. 2000, №12, с.3-13.
4. Крутова О.Н. Человек и история: проблема человека в социальной философии марксизма. М.: Наука, 1990, 192 с.
5. Кутырев В.А. Духовность, экономизм и после: драма вазимодействия. //Вопросы философии, 2001, №8, с.56-66.
6. Маркс К., Энгельс Ф. Сочинения. Т.42, М.: 1982, 512 с.
7. Марков В.И. «Свое», «чужое» и отчуждение в культуре Кемерово КТИТТИ, 2002, 169 с.
8. Чангли И.И. Труд. Социологические аспекты теории и методологии исследования. М., Центр Социального прогнозирования. 2002, 612 с.


## К СОЦИАЛЬНО-ФИЛОСОФСКОЙ СУЩНОСТИ ОТЧУЖДЕНИЯ


**З.Дж.ГАДЖИЕВ, Я.М.АЛИЕВ**


### РЕЗЮМЕ


Статья посвящена раскрытию социально-философской сущности отчуждения. В ней отмечаются недастотки марксистского подхода к анализу этого явления, считавшего его порождением только частной собственности и капитализма. «Подчерки-

вается, что отчуждение будучи связанным с общественным разделением труда имеет общесоциологическое содержание.

Особое внимание уделяется анализу причин, порождающих отчуждение в современном обществе и форм его проявления в сферах. Показывается огромное значение, проводимых в нашей стране глубоких реформ, для снижения остроты проявления и смягчения отчуждения.

## ON THE SOCIAL-PHILOSOPHICAL ESSENCE OF ALIENATION

**Z.J.HAJIYEV, Y.M.ALIYEV**

### SUMMARY

This article deals with the disclosure of social-philosophycal essence of the alienation. It reveals the shortcomings of Marxian approach to the analysis of this phenomenon that considers the alienation as a product only of private ownership and capitalism. It is emphasized that the alienation associated with the social division of labor has a common sociological content. Special attention has been paid to the analysis of the causes that engender the alienation in contemporary society and its manifestations in economic, political and spiritual spheres. The enormous importance of the deep reforms effected in our country for the purpose to reduce and mitigare the acuteness of alienation and its manifestations has been underscored.